**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 24 noyabr 2010-cu il

# Azərbaycan Respublikasinin Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2010-cu il üçün 1-ci müsabiqəsinin (EİF-2010-1) nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat proqramları və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan fiziki şəxslərin, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən elmi və digər qurumların (dövlət qurumlarının, qeyrihökumət təşkilatlarının və s.) elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə cari ilin elmi prioritetlərinə uyğun olaraq qrantların verilməsi üzrə 2010-cu ildə keçirilmiş 1-ci müsabiqəsinin (EİF-2010-1) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu 2010-cu il üçün 1-ci müsabiqəsinin keçirilməsi haqqında qərarını 30 iyun 2010-cu il tarixində keçirilmiş mətbuat konfransında, internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddəti 1 iyul – 15 sentyabr 2010-cu il tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası məsləhət seminarları təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində 1-ci müsabiqəyə 199 layihə daxil olmuş və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmişdir. 16 sentyabr – 12 noyabr 2010-cu il tarixlərini əhatə edən müddətdə bu layihələrin texniki və elmi ekspertizası işi təşkil olunmuşdur. 30 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 169 layihə isə müəyyən şərtlərlə elmi ekspertizaya buraxılmışdır. Ekspertiza işinə Elmin İnkişafı Fondunun

daimi ekspertləri və müstəqil ekspertlər (zəruri hallarda xarici mütəxəssislərin köməyindən istifadə olunmaqla) cəlb olunmuşlar. Eyni zamanda, elmi ekspertiza mərhələsinə keçmiş layihələrin siyahısı internet səhifəsində dərc olunmuş və onların forum tipli elmi-ictimai müzakirəsi işi də təşkil olunmuşdur.

3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.
4. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil ekspertlərin hər bir layihə üzrə hazırladığı rəylər, tövsiyələr və ümumiləşdirilmiş arayışların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının 2010-cu il 13 noyabr tarixli iclasında ətraflı baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və əhəmiyyətinə görə onlar 3 qrupa bölünmüşdür: A – şərtsiz olaraq dəstəklənməyə layiq layihələr; B – üzərində yenidən işlənilməklə (təkmilləşdirilməklə) növbəti müsabiqələrə təqdim olunması tövsiyə olunan layihələr; C – dəstəklənməyə layiq olmayan layihələr.
5. 2010-cu il üçün 1-ci müsabiqə çərçivəsində A qrupu üzrə 40 qalib layihə müəyyənləşdirilmiş, Elmin İnkişafı Fondunun qərarının verilməsi üçün dəstəklənən (maliyyələşdiriləcək) layihələrin siyahısı (əlavə olunur) və hər qalib layihə üzrə maliyyələşdirilmə həcmi Elmin İnkişafı Fondunun Himayədarlar Şurası ilə razılaşdırılmaqla Elmin İnkişafı Fondunun 2010-cu il 19 noyabr tarixli Q-4 nömrəli qərarı ilə təsdiq olunmuşdur. 1-ci müsabiqə üzrə qalib layihələrin ümumi maliyyələşdirilmə həcmi 4 665 000 manat olmuşdur.
6. Layihələrin müsabiqədən keçməsi barədə Elmin İnkişafı Fondunun qərarının qəbul edildiyi gündən etibarən bir ay ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə layihə rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaqdır.
7. Elmin İnkişafı Fondunun Himayədarlar Şurası 2010-cu il üçün 2-ci qısamüddətli ünvanlı müsabiqənin elan olunması və keçirilməsi haqqında qərar qəbul etmiş və bu Elmin İnkişafı Fondunun 2010-cu il 23 noyabr tarixli Q-5 nömrəli qərarı ilə təsdiq olunmuşdur. 2-ci müsabiqənin maliyyələşdirilmə həcmi 1 435 000 manat nəzərdə tutulmuşdur.
8. Elmin İnkişafı Fondu cari müsabiqədən keçməyən layihələrin təkmilləşdirilərək növbəti qrant layihələri müsabiqələrinə yenidən təqdim olunması haqqında tövsiyə verir, Elmin İnkişafı Fondunun 1-ci müsabiqəsinin iştirakçılarına və ekspertlərə minnətdarlığını bildirir və yeni müsabiqə iştirakçılarına uğurlar diləyir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***